# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 231/2 25 aprel 2012-ci il

Sərbəst auditorların 2012-ci ilin I rübü üzrə gündəliklərinə dair hesabat barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının - "Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarının və gündəliklərinin qəbulu və ümumiləşdirilməsi" 8.6-cı bəndinə uyğun olaraq Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsi (M.Abbasov) tərəfindən hazırlanmış "Sərbəst auditorların 2012-ci ilin I rübü üzrə gündəliklərinə dair hesabat" barədə məruzəni müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Sərbəst auditorların 2012-ci ilin I rübü üzrə gündəliklərinə dair hesabat" nəzərə alınsın (əlavə olunur).
2. 2012-ci ilin I rübü üzrə gündəlikləri təqdim etməyən sərbəst auditorlar Otello Zəkəriyyə oğlu Eminova, Cəmilə Cabirovna Nağıyevaya, Eldəniz İsgəndər oğlu İsgəndərova, Ziya Tofiq oğlu Qurbanlıya, Alqış Tərlan oğlu Nuriyevə və Tariyel Aslan oğlu Talıbova ciddi xəbərdarlıq edilsin və onların nəzərlərinə çatdırılsın ki, gələcəkdə gündəlikləri təqdim etmədikləri halda auditor xidməti göstərmək hüququ verən lisenziyalarının fəaliyyətinin dayandırılması məsələsi müzakirə ediləcəkdir.
3. Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasova tapşırılsın ki, bir ay müddətində "Sərbəst auditorların gündəliklərinə dair hesabatlarının elektron qaydada hazırlanması, göndərilməsi, təqdim edilməsi və işlənilməsi haqqında" Təlimatın hazırlanıb təqdim olunması təmin edilsin.
4. Palata aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, həmin Təlimat təsdiq edildikdən sonra onun Palatanın saytında müvafiq qaydada yerləşdirilməsi təmin edilsin.
5. Bu qərar Auditorlar Palatasının internet saytında yerləşdirilsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**